Azərbaycan müəllimi.- 2023.- 2 iyun. S. 10.

# Zirvəyə aparan yol



## Arzularına tədqiqatları ilə cığır açan alim

Həyat kimləri döyə-döyə bərkidirsə, kimlər əziyyətli, zəhmətli bir həyatdan keçirsə, onları əymək, sındırmaq, dəyişmək mümkün olmur. Belələri sədaqətli, səmimi, xeyirxah, insanpərvər, vətənpərvər, sözübütöv, əqidəli olurlar. Məhz İlham Tahirov da bu xoşbəxtliyin sevincini və qürurunu yaşayan alim-ziyalılarımızdandır. Mən onu otuz ilə yaxındır ki, tanıyıram. Amma ömür yolunu vərəqlədikcə, haqqında danışılan söz-söhbəti dinlədikcə halallığı, mərdlik, ədalət və səxavəti ilə seçilənlərdən olan, dərgahı göylərə açılan uca bir insan, elm adlı bir mələk haqqında nağıllara qulaq asırsan elə bil. Masallı yurdunun sinəsinə qızılgül kimi sancılan Miyankü kəndinin geniş darvazasından əsrlər boyu kimlər keçməyib, kimlər adlamayıb?... Axı torpaq da insan kimidir, - deyirlər...

"Qızmar yay dövrünün ilk günlərinin birində bar-bərəkət rəmzi sayılan bu kənddə dünyaya göz açmışam. İndi 60 yaşımın ucalığından baxıb yenə də bu yurdu ruhumun əbədi beşiyi sanıram... lap yeniyetmə yaşlarımdan səyahətə çıxmaq, vətən torpağını qarış-qarış gəzib, onun bütün gözəlliyini göz yaddaşıma köçürmək arzusunda olmuşam. Bəlkə elə ona görə də mənim ömür yolum ucu-bucağı görünməyən, nəhayətsiz yollardan başlayır... Bir gün müəlliməm, bir gün alim. Bir gün isə dilçi-tərcüməçi".

Hər adamın öz dövrü var, hər dövrün öz adamı. Ötən əsrin 63-cü ilində Masallı rayonunun Miyankü kəndində dünyaya gələn İlham Mikayıl oğlu Tahirov şərəfli ömrünü yaşayır. İlham müəllim Miyankünü özü üçün rəsmi rəmz seçməsə də, doğulduğu kənd onun üçün əbədi inanc yeridir.

Keşməkeşli ömür yolunu özündən yaxşı heç kəs xatırlamır:

"Orta məktəbdə oxuyarkən bir neçə ictimai iş tapşırdılar mənə: divar qəzetinin buraxılışı, komsomol komitəsinin katibi, həmkarlar təşkilatının sədri və sair və ilaxır. Bircə yadımda qalan odur ki, əlavə işlər dərslərimə mane olmurdu. Məktəbi əla qiymətlərlə bitirdikdən sonra ali məktəb həyatım başladı. İndiki Dillər Universitetinin ingilis dili fakültəsini fərqlənmə diplomu ilə bitirdim. Təhsil dövründə çox tanınmış, görkəmli alim və pedaqoqlardan dərs aldım. Universiteti bitirdikdən sonra tədrislə məşğul oldum. 1990-cı ildən isə həyatımı Dilçilik İnstitutu ilə bağladım".

İlham Tahirov sözə əyilən, sözə ümid edən, köksündə bişirdiyi sözdən asılı olan, sözünün ağası olan insandır.

Söz o vaxt güclü olur ki, onu deyən insan uzun müddət özü öz qəlbində gəzdirir, sözü bişirir, yoğura-yoğura bişirir. Yaxşı yoğrulmuş bişmiş söz güclü olur. Yoğrulmamış, bişməmiş söz yadda da qalmır, vaxtla, zamanla da uyuşmur. Küt düşmüş çörəyə bənzəyir. Mən demirəm ki, İlham müəllimin elmi yaradıcılığında küt düşmüş "söz"lər, "fikir"lər yoxdur. Var.. Ancaq bunların da kündəsi İlham Tahirovun öz qəlbində yoğrulduğu üçün ona əzizdir, elmə də doğmadır. Ona görə ki, elm adamı hiss edir ki, bu söz qəlpələri, qatarlanmış tədqiqatlar İlham Tahirovun köksündən qopub ayrılıb. Yaxşı söz yaxşı tədqiqat dənizin dərinliklərindəki mirvari kimidir.

"Hər səhər zümrüdü yuxudan durub, ətrafında çöl-çəmən, gözəllik, ucalıq görən insanlar! Salam-əleyküm!... Ruhum torpağından maya tutan Masallı yurdu! Xoş gördük! Heç yadınıza gəlirmi, ürəyimi bu yerlərdə qoyub getdiyim gün? İlahi sevgimə, Tanrı istəyimə əzəl beşik, əzəl yurd! Qeybanə bir səsin sifarişi ilə hər dəfə bu yerlərə gələndə hayana baxıramsa atamın ayaq izlərini, mələk simalı ağbirçək anamı görürəm. Elə bilirəm onlar mənim arzularımın dağ çayındakı sellərinə qovuşub səssiz-səmirsiz axıb gedir...

Professor İlham Tahirov dilçi alim kimi düşündürücü ideyaları, orijinal münasibəti, polemikaya hazır olan potensialı ilə fərqlənir. Mənə elə gəlir ki, əgər yaradıcı adam öz fikirləri ilə, eləcə də istənilən bir məsələyə münasibəti ilə başqalarını düşündürə bilirsə, deməli o, istedad sahibidir. Əsas isə istedad sahibi olmaqdır. Tale elə gətirib ki, Ulu Tanrı İlham müəllimə də istedad verib: alimlik və tərcüməçilik istedadı. İlham müəllim öz aradıqlarının arxasınca düşüb sonsuzluğa uzanan bir yolu qət edir. Bəzən özünü də, axtardıqlarını da tapır, bəzən isə uzun sürməyən bir səadəti itirir. Bəzən izinə düşdüyü yolçular qaranlıqlar içində yox olur, onda İlham Tahirov da qaranlıqlara qərq olur. Bəzən onun yolçuları nağıl dünyasındakı qara qoçun, ağ qoçun belinə atlanır, İlham Tahirovla birgə... Odur ki, o, bir alim kimi dəyişkən əhvali-ruhiyyə ilə yaşayır. O, əhvali-ruhiyyəsinin bütün məqamlarında axtarışdadır: sakit dayananda da, əsəbi olanda da, danışanda da, güləndə də, güldürəndə də...

"İnsan həyatında elə mənalı günlər, elə mənalı anlar olur ki, onları zaman-zaman yada salanda qəlbin ılıq hiss və duyğularla riqqətlənir və sən dünyada ən ali, təmənnasız mənəvi dostluğun hər şeydən üstün olduğuna bir daha inanırsan... Əlbəttə, bu cür münasibətlərə hər adam qadir deyil. Bunun üçün fitrətən geniş ürəyin, sadə və açıq təbiətin olmalıdır".

Professor İ.Tahirov həm də pedaqoqdur. O, uzun illərdir ki, Azərbaycanın müxtəlif ali təhsil ocaqlarında çalışıb, bu gün də çalışır. Hər gün gənclərlə görüşür, onların əhatəsində yaşayır. Bu mühit İ.Tahirova rəngarəng mövzularla yanaşı, güclü ilham verir. Onun ilhamının gücü dərs dediyi, mühazirələr oxuduğu, seminar məşğələlər apardığı tələbələrindəndir.

"Deyirlər, elmin vətəni olmur, amma alimin mütləq vətəni olmalıdır. Başqa xalqların dilini öyrənməyə müəyyən zaman məsafəsi kifayət edər, amma öz dilini öyrənməyə vallah bir insan ömrü bəs etmir. Ömrünün bahar tək körpəlik dövrünü, yay kimi gənclik çağlarını, payız kimi saçlara gümüşü dən düşən vaxtlarını, boranlı-şaxtalı qış günlərinə bənzər uzun gecələrini saysız-hesabsız kitablar arasında keçirmişəm".

İlham Tahirov ağır sınaqlardan, tər tökən həyat imtahanlarından keçmiş yorulmuş, lakin hələ arzularının çin olmadığını gördükdə inadla ayağa durub irəliyə baxan alimdir. İlhamına sarılaraq istəyinə, arzusuna tədqiqatları ilə cığır açan alimdir. Ömür adlı karvanın nə qədər uzun bir yolda olduğunu dərk edən alimdir. Özünə və sözünə inanan alimdir. Sözü və onun çəkisini özü qədər qiymətləndirən alimdir. Sözü əsərlərinə yerliyerində və məqamında düzməyi bacardıqda isə ona Tanrının himayə etdiyi bir varlıq kimi yanaşan alimdir. Hissləri, duyğuları, arzu və istəkləri daşa dəydikdə, qara qüvvələrlə toqquşduqda, ağlı hissini üstələyənlərin baryerlərini aşa bilmədikdə pessimizm notları ilə yaşayan alimdir. Bir sözlə, təbiidir, zərifdir, bəzən inadkar, bəzən üsyankar, bəzən sadəlövh, bəzən təvazökar alimdir. Nəhayətdə isə İlham Tahirov hər şeydən əvvəl ALİMDİR! Məhz onun bir alim kimi gücü bunlardadır!

İlham müəllim ömrünün elə mərhələsindədir ki, geriyə baxmaq, ötüb-keçənləri xatırlamaq məcburiyyətindədir. O, irəliyə, gələcəyə baxmağı da unutmur. Odur ki, indi onun insan - alim ömrü limana yan almaq istəyən gəmiyə bənzəyir. Bu gəmi yenidən limandan hərəkətə başlayacaqdır. Professor İlham Tahirov hələ limanda ümid, enerji, güc toplayır, üzünü Yaradana tutaraq ümid ver deyir!

Bu arada müqəddəs bir yaş - 60 yaş İlham müəllimin qapısını döydü. Sevinirik ki, İlham Tahirovun canı sağlam, ruhu təzə, enerjisi tükənməzdir. Hələlik 60 yaşlı İ.Tahirov üçün Peyğəmbərimizin bir fikrini söyləmək istərdim. Peyğəmbərimiz deyib ki, heç vaxt doymayan iki ac var: elm acı və var-dövlət acı. İlham Tahirov birincilərdəndir. Elmi tədqiqatlarından, elmi fəaliyyətindən doymayan bir alim kimi hələ yeni-yeni əsərləri, məqalələri ilə Azərbaycan dilçilik elmini sevindirəcəkdir. Ona bu yolda uğurlar, cansağlığı arzulayır, 60 yaşınız mübarək! deyirəm.

Amma, ürəyiniz sıxılmasın, qarşıda hələ 70-də var, 80, 90, 100 də...

**Fizuli MUSTAFAYEV,**
*filologiya üzrə fəlsəfə doktoru, AMEA Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi*